# "Azərbaycanda olduğum üçün çox xoşbəxtəm"



*BMU-da təhsil alan pakistanlı tələbə:*

## "Gələcəkdə Azərbaycanda işləmək və yaşamaq istərdim"

Azərbaycanda təhsil alan əcnəbi tələbələrdən biri də Aişə Malikdir. O hazırda Bakı Mühəndislik Universitetində biznes idarəçiliyi və maliyyə üzrə magistratura təhsili alır.

"Azərbaycan müəllimi" pakistanlı tələbə ilə müsahibəni təqdim edir:

**"Əcnəbi tələbələri tədqiqat aparmağa həvəsləndirirlər"**

- *Nə üçün məhz Bakı Mühəndislik Universitetini seçmisən?*

- Bakı Mühəndislik Universitetini seçməyimin əsas səbəbi universitetin texniki və biznes elmlərini inteqrasiya etməsidir. Bu universitet sizi təkcə nəzəri biliklərlə deyil, eyni zamanda, təcrübə ilə də təmin edir. Bildiyiniz mövzular haqqında sizə təcrübə qazandırır. Universitetdə müxtəlif hakatonlar və keys müsabiqələri keçirilir. Üstəlik, universitetin bir sıra sənaye müəssisələri ilə əməkdaşlığı var və tələbələrinin təcrübə keçməsinə, məzun olduqdan sonra karyera qurmasına və iş tapmasına yardım edir.

Bakı Mühəndislik Universitetində mühit çox maraqlıdır, çünki çoxistiqamətlidir. Burada dərslərlə yanaşı, mədəni tədbirlər keçirilir. Tələbələrin bu mühitdə qaynayıb-qarışmasına, tədbirlərdə özünü yaradıcı tərəfdən ifadə etməsinə diqqət yetirilir. Xüsusilə əcnəbi tələbələrə belə yanaşırlar.

Burada mühit əməkdaşlıq yönümlüdür. Hətta professorlar da əcnəbi tələbələri tədqiqat aparmağa həvəsləndirir, onları dəstəkləyir və məqalələrini dərc etmələrinə kömək edirlər. Karyeraları üçün fürsətlər yaradırlar. Gələcəkdə onlara tövsiyə məktubları da verə bilərlər.

**"Əminəm ki, burada təcrübə qazanacağam"**

- *Bakı Mühəndislik Universitetində oxumağın üstünlükləri nələrdir?*

- Qeyd etdiyim kimi, ixtisasımızı praktiki şəkildə öyrənməyimizə kömək edirlər. Məsələn, burada texnopark var. Orada hakatonlar keçirilir. Mən biznes tələbəsi olaraq karyerama başlamazdan əvvəl startap planımı qura bilirəm. Layihənin ilkin versiyasını hazırlamağıma kömək edirlər və məni hakatonlarda, müsabiqələrdə iştiraka yönləndirirlər. Beləliklə, əminəm ki, burada təcrübə qazanacağam və bu, əlbəttə, gələcəkdə mənə çox kömək edəcək. Yəni, hər hansı işə və ya sənaye sahəsinə getməzdən əvvəl bacarıqlarımı inkişaf etdirirəm.

**"Burada tələbə həyatım ürəyimcədir"**

- *Bəs tələbəlik həyatını necə keçirirsən?*

- Tələbəlik həyatım, buradakı əməkdaşlıq mühiti, tələbə dostlarım, müəllimlərim, müəllimim Xatirə xanım, bir sözlə, hər şey ürəyimcədir. Şəxsi məsələlərimdə, iş tapmaqda, yeni təcrübələr qazanmaqda və öyrənmək imkanları, tədqiqatlarım - hər məsələ ilə bağlı yardımlarını məndən əsirgəmirlər. Həmçinin burada müxtəlif tədbirlər, idman oyunları keçirilir. Tələbələrin bir araya gələ biləcəyi müxtəlif qruplar var. Məsələn, Gənclər Klubu, Beynəlxalq Klub və s. Həmin klublarda tələbələr problemlərini müzakirə edir, yeni həll yolları tapır, yeni imkanlar axtarırlar. Bu baxımdan universiteti mi sevirəm.

**"Azərbaycanın mədəniyyəti məni cəlb etdi"**

- *Azərbaycan haqqında təəssüratını da bizimlə bölüşərdin...*

- Azərbaycanda olduğum üçün çox xoşbəxtəm. Bu ölkə haqqında təəssüratım çox müsbətdir. Ona görə ki, ölkə qonaqpərvərdir, insanları mehriban, səxavətli və yardımsevər, xeyirxahdırlar. Hər zaman sizə kömək etməyə hazırdırlar. Azərbaycan ənənəvilik və müasirliyin sintezidir. Mən həmişə fərqli mühitdə, fərqli mədəniyyətdə nəsə kəşf etmək, öyrənmək istəmişəm. Ona görə də Azərbaycanı seçdim, onun mədəniyyəti məni cəlb etdi. Çox gözəl ölkədir. Mədəniyyəti Bakı mənzərəsindən İçərişəhərə - müasirlikdən tarixə qədər uzanır. Həqiqətən, buranın möhtəşəm mədəniyyəti var.

**"Dolma və plov çox dadlıdır"**

- *Yeməklərə və iqlimə öyrəşmək çətin olmadı?*

- Burada bir çox yeməyi dadmışam. Məsələn, dolma və plov, həqiqətən, çox dadlıdır. İqlimlə bağlı heç bir çətinlik çəkmədim. Asanlıqla uyğunlaşdım. Buradakı insanlara, iqlimə, hər şeyə tez öyrəşmək olur.

- *Gələcəkdə Azərbaycanda qalıb təhsilini davam etdirmək və ya işləmək istərdinmi?*

- Azərbaycana, Bakı Mühəndislik Universitetinə, rektorumuza və tədqiqatımda, təhsilimdə, hər mövzuda mənə kömək göstərən bütün müəllimlərimə təşəkkür edirəm. Bu ölkə, bu universitet və buradakı insanlar məndə çox dərin təəssürat yaradıb. Ona görə də gələcəkdə bacarıqlarıma uyğun gələn iş fürsəti tapa bilsəm, Azərbaycanda işləməyi və yaşamağı istərdim.

**Gülsüm XƏLİLOVA**